# Hörmətli Adnan Oktarın yeni izahları (10 aprel 2013; 23:00)

**HÖRMƏTLİ ADNAN OKTARIN MUMİNUN SURƏSİNDƏN AYƏ İZAHLARI**

**Muminun surəsi, 106-cı ayə**

**"Onlar deyəcəklər: "Ey Rəbbimiz! Bədbəxtliyimiz bizə üstün gəldi və biz doğru yoldan azan bir camaat olduq"".**

Bədbəxt olan insanların ağlına zərər gələr. Qəmgin insanların iman qarşı qəlbləri bağlı olar. Ona görə bəzi tiplər də həmişə müsəlmanların ağlamağını istəyir. Deyirlər: *"Ağlayın, çox ağlayın".* Küfr əhli bədbəxt olar, bədbəxtliyi imansızlığına vəsilə olar, imansızlığı da bədbəxtliyinə vəsilə olar. Yəni bir-birinə kilidlənmiş bir sistem vardır**.** Ona görə Allah, onlar üçün belə deyir: **"Az gülsünlər, çox ağlasınlar".** Bəzi müsəlman qardaşlarımız müsəlman qardaşlarımıza nə deyir? *"Əsla gülməyin, çox ağlayın".* Ayə nə deyir? **"Az gülsünlər, çox ağlasınlar".** Allah küfrün xüsusiyyəti kimi bunu bildirir*. "Müsəlmanı niyə ağladırsan, niyə bədbəxtliyə çəkirsən? Müsəlman xoşbəxt olsun, şən olsun, sevincli olsun".* **Allah müsəlmanların xoşbəxt olmağını istəyir. "Üzlərində iman sevinci, iman parıltısı vardır".-**deyir ayədə. **"Nemətin parıltılı sevincini görərsən"-**deyir cənnətdə. **Allah sevinci bəyənir.**

**Muminun surəsi, 112-113-cü ayələr**

**"Allah kafirlərdən: "Yer üzündə neçə il qaldınız?"– deyə soruşacaq. Onlar: "Bir gün yaxud bir gündən də az qaldıq. Sən (günləri) sayanlardan soruş"– deyəcəklər".** Yəni yuxuda olma müddəti qədər. **"Bir gün"**-yəni, *"ən çox 24 saatdır"* -deyir. Yəni yatıb oyandığını zənn edir. Səmimi qənaətini bildirir. Minlərlə il keçir, yüzlərlə il keçir, dərk edə bilmir.

**Muminun surəsi, 115-ci ayə**

**"Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz (heç vaxt) Bizə qaytarılmayacaqsınız?"**

Necə ki, *"Allah var amma din yoxdur"* deyirlər. Yəni *"Dünya boş məqsəd üçün yaradıldı"*-deyirlər. Allah, **"Siz belə hesab edirdiniz...?"** deyir, *"Boş məqsəddir?"* -deyir.

**Muminun surəsi, 117-ci ayə**

**"Kim Allahla yanaşı, haqqında özünün heç bir dəlili olmadığı başqa bir tanrıya ibadət edərsə, onun cəzasını Rəbbi Özü verəcəkdir. Şübhəsiz ki, kafirlər nicat tapmazlar!"**

**"Kim Allahla yanaşı, haqqında özünün heç bir dəlili olmadığı başqa bir tanrıya ibadət edərsə..."** -yəni darvinizmə, materializmə inansa- **"onun cəzasını Rəbbi Özü verəcəkdir. Şübhəsiz ki, kafirlər nicat tapmazlar!" -**deyir Allah. Dünya darvinist, materialist kimi qurtuluşa çata bildi mi? Çata bilmədi. Həlak oldular. Bütün Avropa batdı, hər yer batdı. İslam aləmi məhv oldu darvinizmdən.

**Muminun surəsi, 118-ci ayə**

**"De: "Ey Rəbbim, bağışla və rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan!""**

Müsəlmanın dualarından biridir bu dua. Allaha deyilir. Nə gözəl duadır.

https://www.harunyahya.info/az/meqaleler/hormetli-adnan-oktarin-yeni-izahlari-10-aprel-2013-2300